**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

## T E A T R   S Ə N Ə T İ

**UOT 792.03**

**Elnurə Əsədova**
**Bakı Xoreoqrafiya Akademiyasının dissertantı**
**AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov 75**
**E-mail: bxaedu@gmail.com**

# ƏDİL İSKƏNDƏROV VƏ YA KƏRBƏLAYİ İSMAYIL "AXIRINCI AŞIRIM" FİLMİ

**Xülasə:** Azərbaycan incəsənətində elə görkəmli sənətkarlar var ki, onların yaradıcılığı mədəniyyət tariximizin müəyyən dövrünün salnaməsini təşkil edir. Belə sənətkarlardan biri də tanınmış rejissor, aktyor və pedaqoq, Azərbaycanın xalq artisti, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor Ədil Rza oğlu İskəndərovdur. Azərbaycan incəsənət tarixində müəyyən bir dövrü tam yaşamış Ə.İskəndərov teatrı milli incəsənətin inkişafına təsir göstərmişdir. Onun yaratdığı Azərbaycan teatr məktəbi müxtəlif nəsil rejissorlar, aktyorlar, rəssamlar yetişdirmiş və onlarda teatr zövqünün formalaşmasında mühüm rol oynamışdır. Bu təkcə onun yaradıcılığının uğurları ilə deyil, həm də Ə.İskəndərov şəxsiyyətinin fenomenilə bağlı idi.

**Açar sözlər:** teatr, kino, incəsənət, rejissor, aktyor.

Teatra göstərdiyi qayğı və diqqəti eynilə kinoya da göstərən Ə.İskəndərov "Azərbaycanfilm"in inkişafı yönündə qətiyyətli addımlar atmağa başladı. Azərbaycan kinosunun inkişafı üçün bir sıra əsaslı tədbirlər həyata keçirmək məqsədilə kinostudiyaya istedadlı gənc yazarlar dəvət edərək ssenaristlər emalatxanasını, aktyorların özlərini inkişaf etdirmələri üçün kinoaktyor studiyasını təşkil etməklə "Azərbaycanfilm"in yüksəlişinə gətirib çıxarırdı. Ə.İskəndərov kinostudiyada direktor kimi çalışdığı dövr ərzində bir daha sübut etdi ki, yaradıcılıq işini peşəkar səviyyədə bacaran, öz ətrafında həmfikirlər komandası toplamağı bilən, müasir düşüncəli, gənc yaradıcı nəsillə münasibət saxlamağı bacaran və onlara dəstək, dayaq ola bilən bir mütəxəssisdir.

Azərbaycan teatr və kino sənətinin görkəmli siması, rejissor və aktyor Ədil İskəndərov 5 may 1910-cu ildə Gəncədə anadan olmuş, hələ məktəb illərindən teatra həvəs göstərərək Gəncədəki İşçi klubunda dram dərnəyində ilk addımlarını atmışdır. Burada həvəskar olaraq Cəfər Cabbarlının "Od gəlini", "Sevil", Aleksandr Şirvanzadənin "Namus", Vano Mçedaşvilinin "Qaçaq Kərəm" pyeslərini tamaşaya hazırlayan gənc istedad özü də bu tamaşalarda Balaş ("Sevil"), Şəkinski ("Oqtay Eloğlu"), Qaçaq Kərəm kimi rolları ifa etmişdir. Bir müddət Bam Teatr məktəbində təhsil alan Ədil İskəndərov Milli teatrın səhnəsində kütləvi və epizodik rollarda özünü sınamış, sonralar Cəfər Cabbarlının məsləhəti ilə Moskvaya ali təhsil üçün yola düşmüşdür. 1935-ci ildə Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsini tamaşaya qoyduğu Aleksandr Korneyçukun "Platon kreçet" əsəri diplom işi ilə əla qiymətləndirilib bitirərək Akademik Milli Dram Teatrına təyinat alır. Adi rejissor olaraq teatra gəlmiş Ədil İskəndərov 3 il sonra baş rejissor təyin edilir, bir müddət sonra isə bu vəzifə bədii rəhbər və teatrın direktoru kimi vəzifələrə təyin edilir.

Monumental romantik-realist teatr məktəbini formalaşdıran Ədil İskəndərov Milli Dram Teatrının səhnəsində Cəfər Cabbarlının "Aydın" (1940), "1905-ci ildə" (1955), Səməd Vurğunun "Vaqif" (1938), "Xanlar" (1939), "Fərhad və Şirin" (1941), Rəsul Rzanın "Vəfa" (Ələsgər Şərifovla birgə. 1943), Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz" (Ələsgər Şərifovla birgə. 1945), Mirzə İbrahimovun "Həyat" (1937 və 1954), "Məhəbbət" (1942), İlyas Əfəndiyevin "İşıqlı yollar" (1947), "Bahar suları" (1948), Sabit Rəhmanın "Xoşbəxtlər" (Şəmsi Bədəlbəyli ilə birgə. 1941), "Nişanlı qız" (1953), Cabbar Məcnunbəyovun "Yanar dərə" (1938), "İliç buxtası" (Ələsgər Şərifovla birgə. 1958), "Dönüş" (1960), Mehdi Hüseynin "Nizami" (1942), "Cavanşir" (1957), Hüseyn Cavidin "Şeyx Sənan" (Ələsgər Şərifovla birgə. 1956), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (1947), "Od içində" (1951), Adil Babayevin "Cəfər Cabbarlı qəhrəmanları arasında", (Ələsgər Şərifov və Əliheydər Ələkbərovla birgə. 1960), İslam Səfərlinin "Ana ürəyi" (1960), Vilyam Şekspirin "Otello" (1949), Aleksandr Şirvanzadənin "Namus" (1952), Nazim Hikmətin "Türkiyədə" (1953) pyeslərinə quruluşlar verib. 1948-ci ildə "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasındakı rejissor işinə görə Stalin mükafatı layiq görülmüş Ədil İskəndərovun quruluş verdiyi tamaşalar təkcə Akademik Milli Dram Teatrının səhnəsində bitmir. (5)

Azərbaycan Dövlət Rus Dram Teatrında Səməd Vurğunun "Vaqif", Azərbaycan Dövlət Opera və Balet Teatrında Reynqold Qlierin "Şahsənəm" (1938), Bakı Erməni Dövlət Dram Teatrında Mirzə İbrahimovun "Həyat", Cəfər Cabbarlının "1905-ci ildə" əsərlərini tamaşaya hazırlamış, özünün yazdığı "Dağlar qoynunda" komediyası (bəstəkar Əşrəf Abbasov) Musiqili Komediya Teatrında, "Partizan Məmməd" (Sabit Rəhmanla birgə) pyesi Gənc Tamaşaçılar Teatrında oynanılmışdır.

Həmçinin, 1937-ci ildən Bakı Teatr Məktəbində, sonralar Azərbaycan Dövlət Teatr İnstitutunda pedaqoq kimi çalışmış, aktyor və rejissor sənətinin incəliklərini tələbələri ilə bölüşmüş, bir neçə kursa rəhbərlik etmişdir.

Azərbaycan teatr və kinosu üçün bu qədər faydalı işlər görmüş, bu iki sənətin inkişafı yolunda əvəzsiz xidmətləri olmuş Ədil İskəndərovun Səməd Vurğunun "Vaqif" pyesinə ekran həyatı vermək, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanının əsasında çoxseriyalı televiziya filmi çəkmək kimi ideyaları təəssüfki gerçək ola bilmədi.

Teatrdakı fəaliyyəti ilə yanaşı, 50-ci illərin ortalarından filmlərə çəkilməyə başlayan xarakterik rollar ifaçısı Ədil İskəndərov "Qara daşlar" (1956) (Xəlilov), "O

olmasın, bu olsun" (1956) (Qoçu), "Bir məhəlləli iki oğlan" (1957) (məhkəmə sədri), "Uzaq sahillərdə" (1958) (Rosselini), "Leyli və Məcnun" (1961) (tacir), "Əmək və qızılgül" (1962) ( klub müdiri), "Romeo mənim qonşumdur" (1963) (professor Yunis Quliyev), "Zəncirlənmiş adam" (1964) (Nikandro), "İyirmialtılar" (1966) (Xaçaturov), "Qanun naminə" (1968) (Kamilov), "Axırıncı aşırım" (1971) (Kərbəlayi İsmayıl), "Ulduzlar sönmür" (1971) (Nəsib bəy), "1001-ci qastrol" (1974) (Əliqafar), "Dərviş Parisi partladır" (1976) (Hətəmxan ağa), "Arxadan vurulan zərbə" (1977) (Dadaşlı), "Üzü küləyə" (1977) (Fərman), "Məhəbbətim mənim, kədərim mənim" (1978) (qoca usta) filmlərində həm epizodik, həm də əsas rolların öhdəsindən ustalıqla gəlmişdir. (1)

Ə.İskəndərov hansı dərəcəli rolu oynamasından asılı olmayaraq, onların hər birində öz yaradıcılıq təcrübəsindən qaynaqlanan cəhətlərini – rola ustalıqla girmək, onu bütün xüsusiyyətləri ilə ifadə eləmək bacarıqlarını əks etdirirdi.

Kinoda aktyorluq fəaliyyəti ilə yanaşı, özünü kinorejissor kimi 1963-cü ildə "Azərbaycanfilm" kinostudiyasında "Əhməd haradadır?" musiqili komediyasına quruluş verməklə sınadı. "Əhməd haradadır?" filminin sosial motivlərin güclü olması, aktyor oyununun əvəzolunmazlığı, rol bölgüsünün dəqiqliyi kimi müsbət keyfiyyətləri olması ilə paralel, filmin sanki musiqili tamaşa təsiri bağışlaması onun mənfi tərəflərindəndir. Film onu izləyən tamaşaçıda sanki, sovet gənclərinin bitməyən bayramı təsəvvürü yaradır. Doğrudur, sənət baxımından kinematoqrafiyamızda aşağı sıralarda yer alsa da, "Əhməd haradadır?" filmi Azərbaycanın hüdudlarında xalq tərəfindən sevilən, dəfələrlə izlənilən, dialoqları dillər əzbəri olan bir ekran əsəridir. Ədil İskəndərov ömrünün 50-ci ilində belə bir film çəkməklə onu teatrdan uzaqlaşdıranlara özünü işgüzar, səriştəlik, bacarıq tərəfdən sübuta yetirdi.

Bütün bu əməyin, zəhmətin qarşılığını 1966-cı ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına direktor təyin olunmaqla alan Ədil İskəndərov bu vəzifəyə təyin olunmaqla bir daha onu teatrdan uzaqlaşdıranların qarşısına yeni bir dəlil qoydu. Eyni əzmlə "Azərbaycanfilm" kinostudiyasında da fəaliyyətinin davam etdirən rəhbərin birbaşa nəzarəti altında 1966-74-cü illər intervalında "Azərbaycanfilm" kinostudiyasında "Sən niyə susursan?" (1966), "Yaşamaq gözəldir, qardaşım" (1966), "Dağlarda döyüş" (1967), "İnsan məskən salır", (1967), "Torpaq. Dəniz. Od. Səma" (1967), "Qanun naminə" (1968), "Mən ki gözəl deyildim" (1968), "Uşaqlığın son gecəsi"(1968), "Bir cənub şəhərində" (1969), "Bizim Cəbiş müəllim" (1969), "Dəli Kür" (1969), "Şərikli çörək" (1969), "O qızı tapın" (1970), "Sevil" (1970), "Yeddi oğul istərəm" (1970), "Axırıncı aşırım" (1971), "Gün keçdi" (1971), "Ən vacib müsahibə" (1971), "Ulduzlar sönmür" (1971), "Həyat bizi sınayır" (1972), "Nəsimi (1973), "Səmt küləyi" (1973), "Bakıda küləklər əsir" (1974) və s. filmlər qısa bir müddətdə çəkilib ekranlara buraxılır. Bütün bu filmlərin ərsəyə gəlməsində bir rəhbər direktor kimi Ədil İskəndərovun əməyi, əziyyəti danılmazdır.

Ədil İskəndərovun xarakterik rolları içərisində özünəməxsusluğu ilə seçilən, milli xarakter ifadəsini özündə əks etdirən "Axırıncı aşırım"(1971) ekran əsərindəki Kərbəlayi İsmayıl obrazıdır. Ə.İskəndərovun Kərbəlayi İsmayılı sözübütöv, zəhmli, kifisifət, qorxmaz, əqidəli, cəsurdur. Onun yaratdığı mülkədar obrazının xarakteri, həyatı aktyorun məh öz xarakteri, həyatı ilə də səsləşir.

Tbilisidə keçirilən V Ümumittifaq kinofestivalında ən yaxşı kişi roluna görə mükafat və diplomunun "Axırıncı aşırım" filmində Kərbəlayi İsmayıl obrazını yaratmış Ə.İskəndərova təqdim edilməsi də bir daha Ədil İskəndərov dühasının yeni bir uğuru idi.

## Ədəbiyyat:


1. Cəfərov C.H. Azərbaycan teatrı: 1873-1973. - B.: Azərnəşr, 1974.
2. Cəfərov C.H. Əsərləri 2 cilddə. - B.: Azərnəşr, 1968. - C.1:
3. Cəfərov C.H. Əsərləri 2 cilddə. - B.: Azərnəşr, 1968. - C.2: Aktyorlar: esteka, nəzəriyyə, tənqid.
4. Cəfərov C.H. Azərbaycan dram teatrı: 1873-1941. - B.: Azərnəşr, 1959.
5. www.vikipediya



**ЭльнураАсадова**


**Адиль Искендеров или Кербалай Исмаил**
**Фильм "Последний перевал"**
**Резюме**


В азербайджанском искусстве есть выдающиеся деятели, творчество которых состовляет - хронику определенного периода истории нашей культуры. Одним из таких деятелей является известный режиссер, актер и педагог, Народный артист Азербайджана, Народный артист СССР, лауреат Государственной премии СССР, профессор Адиль Рза оглы Искендеров. Проживший определённый период в истории искусства Азербайджана, театр А. Искендерова, оказал влияние на развитие национального искусства. Созданная им азербайджанская театральная школа воспитала разные поколения режиссеров, актеров, художников и сыграла важную роль в формировании театрального вкуса. Это было не только успехом его творчества, но и связано с феноменом личности Искендерова.



**Ключевые слова:** театр, кино, искусство, режиссёр, актёр.



**Elnura Asadova**


**Adil Iskenderov or Karbalay Ismail**
**The film "The Last Pass"**
**Summary**


There are prominent figures in Azerbaijani art whose work is a chronicle of a certain period in the history of our culture. One of such figures is a famous director, actor and teacher, People’s Artist of Azerbaijan, People’s Artist of the USSR, USSR State Prize laureate, Professor Adil Rza oglu Iskenderov. Having lived a certain period in the history of art of Azerbaijan, A. Iskenderov’s theater influenced the development of national art. The Azerbaijani theater school he created brought up different generations of directors, actors, artists and played an important role in shaping theatrical taste. This was not only the success of his work, but also related to the phenomenon of Iskenderov’s personality.



**Keywords:** theater, cinema, art, director, actor.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12.04.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 19.04.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 22.05.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Rəsmiyyə Mustafayeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**